# Bir ordu deməkdir bəzən bir ürək...

**Könlümün sevgili məhbubu mənim...**

İnsan ta qədimdən harada məskən salardısa, o torpaq ona doğma olar, qiymətli varidata çevrilərdi. İnsan o torpağa can verər, torpaq da onu yaşadardı. O torpaqda "binə salar", ocaq çatardı, həyat qurardı özünə, Vətən olardı həyat qurduğu o məkan. O məkandan başlardı hər şey... İllər ötdükcə haraları gəzib dolaşmasından asılı olmayaraq yenə öz oba qurduğu məkana dönərdi - o məkan Vətən adlanardı. Şair Abbas Səhhət necə gözəl deyib:

**- Könlümün sevgili məhbubu mənim,**
**Vətənimdir, Vətənimdir, Vətənim!...**

Vətən insan ömrünün şəxsiyyətidir; Vətən ömrü ömür edən, həyata həyat anlamı verən bir məfhumdur. Vətən bölünməz, Vətəndən pay olmaz! Bax, Vətənin ən böyük qiyməti elə budur. Çünki Vətəni Vətən edən torpaq qanla yoğrulur. Vətən torpağı onun uğrunda canlarını fəda edən nər insanların cəsədləri üzərində bərqərar olub. Hər addımı tarix boyu şəhid olanların hesabına vətənləşib, torpaqlaşıb. Elə buna görə də dünyaya gələn hər kəs üçün Vətən müqəddəsdir, əvəzolunmazdır.

Məhz İbrahim Əhmədov da həmişə bu düşüncələrin əsiridir. Onun üçün Vətən məfhumu dünyanın ən əziz, uca sözüdür. Vətən sözü ən uca harmoniya, ən gözəl muğam, simfoniya, esse, vikipeya... Vətən sözü dünyanın başlanğıcı , Vətən sözü dünyanın sonu...

**Özündən qaçmağa**
**nə varmış, qaçıram,**
**Özünə qayıtmaq çətindir, çox çətin...**

Qəbələnin səfalı bir guşəsidir Dızaxlı kəndi. Təbiilik, əsl kənd həyatı hər addımda hiss olunur bu kənddə. Məhəmməd qardaşımızla Zərgül xanımın sadə, zəhmətkeş bir ailəsi vardı. Dörd övladını da halallıqla böyüdürdülər. İkisi oğul, ikisi qız övladı böyüyən ailənin ikincisidir İbrahim. 1987-ci ilin avqust ayının 20-də Yeni Dızaxlı kəndində doğulan İbrahimin uşaqlıq illəri I Qarabağ müharibəsi dövrünə təsadüf etmişdi. Orta məktəbi bitirdikdən sonra 2005-2007-ci illərdə həqiqi hərbi xidmətdə olmuş İbrahim xidmətdən sonra Bakı şəhərində tikinti işlərində, həmçinin elektrik sahəsi üzrə işləmişdi. Müharibə xəbəri hər bir gənc kimi onu da həyəcanlandırırdı. Qəlbində hər an özünü hazırlayırdı döyüşlərə. Özünü özündən qaçırırdı. Gah rayona getmək, gah işdəki işlərini başa vurmaq, qohumlarındakı şəhid gəlişi, onu ziyarətə getmək... Bu, özündən qaçış etmək, özüözünə "sığmamaq" idi...



**İbrahimlə**
**söhbətimizdən...**

Müharibə başlanan ərəfədə iş yoldaşlarıma zarafatla deyirdim ki, işlərimizi başa vuraq, döyüşə gedəcəyəm... İnanmırdılar...

Oktyabrın 4-də kəndimizə gəldim. Həm ailəmizi görmək, həm də şəhid qohumumun ailəsini ziyarət etmək üçün. Elə gəldiyim günün axşamı məni səhər tezdən səfərbərliyə çağırdılar. Oktyabrın 5-də kənd icra nümayəndəliyinə getdim. Bizi Ağcabədiyə təlimlərə göndərdilər.

**İnamdan kəmənd atıb,**
**Zirvəyə dırmanırıq!**

Oktyabrın 7-də Ağcabədidən Pirişgülü istiqamətinə göndərildik. Forma geyindik, briqadaya qoşulduq. Briqadada gənclər də çox idi - hər birinin də öz düşüncə tərzi. Ömründə döyüşdə olmayan, müharibəni kino filmlərdə izləyən və bu haqda filmlərdəki kimi düşünən gənclər idi. Müharibə görməsəm də onların əksəriyyəti ilə yaş fərqim var idi. Onlarla söhbət zamanı dedim ki, biz haqq davası üçün gedirik. Allah həmişə haqq tərəfindədir. Haqq uğrunda müharibə ilk anlar çətinliklərlə dolu olsa da, həmişə sonu qələbə ilə nəticələnmişdir, haqq həmişə qələbənin rəhnidir. Biz qələbə inamı ilə döyüşəcəyik.

Döyüş yolumuz Füzuli istiqamətindən başladı. Bu ərəfədə Cəbrayılın özü, Füzulinin isə bir neçə kəndi alınmışdı. Füzulidə, meşənin içində düşmən 7 metr qalınlığında beton sədd qurmuşdu. Bizim briqada "İlan dağı" alındıqdan sonra bu səddi 3 istiqamətdən almağa çalışdı. Səddə gedən yol tamamilə şumlanmışdı. Arada 2 yüksəklik var idi, kanallar qazılmışdı. Bir sözlə, düşmən alınmaz qala kimi bu səddi əfsanələşdirmişdi. Ancaq döyüşən igidlərimiz müxtəlif həmlələrlə qarşılaşdığı çətinliklərə rəğmən, ölümün gözünə dik baxaraq bu səddi darmadağın etdilər. Bu döyüşlərdə komandirimiz yaralanmışdı. Sol tərəfimə düşən artilleriya mərmisindən mənim də başımın bir tərəfi, qulağım, gözüm yaralandı, bədənimin ağırlığı barmaqlarımın üstünə düşdüyü üçün əl barmaqlarım çıxmış, əlim şişmişdi. Komandirimiz məni bir neçə dəfə həkimə göndərmək istəsə də, yaralarımın yüngül olduğunu söyləyib həkimə getmədim. Çünki həkim ağır yaralılara daha çox vaxt sərf etməli idi. Və mən hansısa döyüş yoldaşımı tək qoymaq istəmirdim. Axı döyüşlərdə bizlərə daha çox ehtiyac var idi. Mən çıxmış barmaqlarımı özüm yerinə saldım və komandirimə hər şeyin qaydasında olduğunu məlumat verdim.

Füzuli azad olunduqdan sonra biz Xocavənd istiqamətində döyüşlərə başladıq.

**Gözlərimdən çıxan qığılcımları,**
**Göylər ulduz edib kəhkəşanında...**

Müharibə arzu olunan bir şey deyil. Müharibə müxtəlif səbəblər üzündən başlaya bilər. Çox vaxt müharibələri onun nəticəsində nə isə - məsələn, qida, torpaq və ya təbii ehtiyatlar əldə edə biləcəyinə ümid edən adamlar başlayır, bəzi müharibələr isə dini səbəblər üzündən aparılır...

I Qarabağ Müharibəsi başlananda nağıllar sandığımız müharibələrin ağrı-acılarının insanlara nələr bəxş etdiyinin şahidi olduq. Faşizmə xas vəhşiliklərin, vandallığın, canlı təzahürü göründü. Müharibənin əsl üzü, istismarçı dövlətlərin köməyi ilə vahid və güclü ordunun olmaması, ölkədəki daxili çəkişmələr bu müharibəyə o illərdə qələbə sevinci yaşada bilmədi. Və bu 28-30 ilə yaxın bir dövrdə insanların bu qədər qan tökülməsinə, şəhid verməsinə, itkin və yaralılarımızın ürək ağrıdıcı həyat yaşamasına, məcburi köçkünlərin də vətənində vətənsiz yaşam tərzi, mənəvi iztirablar ölçüyəgəlməz dərəcədə igidlərimizi narahat edirdi. Onların gözlərində intiqam, qisas qığılcımları parlayırdı. Hər kəs qələbə əzmi ilə döyüşə atılırdı. Hər kəs ölkə rəhbərini, Ali Baş Komandanı dəstəkləyir, Ordumuzun qüvvəsini nümayiş etdirərək son damla qanınadək vuruşurdu. Gecələrin qaranlığında belə bu igidlərin gözlərindən çıxan qığılcımlar göylərin kəhkəşanında ulduz olub mayaka çevrilirdi - igidlərimizin qələbə eşqi ilə döyünən qorxmaz ürəklərində.

**Çiçəklər gülümsər günəş çıxanda...**

Müharibə İbrahimin neçə-neçə silahdaşını şəhadətə qovuşdurdu. Neçə silahdaşı göz önündə qazi oldu... Xocavənd uğrunda gedən döyüşlər, sonra Xankəndi istiqamətində, Şuşadakı döyüşlər, sonra atəşkəs və müharibənin dayandırılması... Qələbə xəbəri... Bütün bunlar göz önündə canlandıqca... müharibənin "tərifini" düşünür insan. Bu sözün qaydası yox, tərifi yox, isbatı yox... Elə bir acı kəlmədir ki, həyat qan donunda... qan rəngində...

Ancaq nə yaxşı ki, günəş var. İnsana yaşamaq əzmi verən, gözəllikləri öz şəfəqləri ilə cana gətirən, həyata həyat verən günəş. Hansı rəngdə, hansı qoxuda açsa da Vətən torpağında çiçəklər günəş çıxanda gülümsər. Şəhidlərin ruhlarıdır bu şəfəqlər! İnsanları təkrar yaşamağa səslər! Qaziləri bu həyatın gözəlliklərini dərk edə-edə yaralarına məlhəm olduğunu hiss etdirər günəş.

**Onunla keçirik hər imtahandan**
**Bir ordu deməkdir bəzən bir ürək.**
**Bir şıltaq körpədən, bir nər cavandan**
**Titrək bir qocaya çevrilir ürək.**

***M. Araz***

Həqiqətən də bir ordudur hər ürək. O ürək vurmasa döyüşçü şücaətlə döyüşə bilməz. Həm də xalq və Vətən eşqilə döyünməsə. Biz o ürəkləri qorumalıyıq. Sadəcə döyüş bölgələrində qazandığı orden və medallar ilə deyil, o ürəkləri yaşatmaq üçün, o ürək sahiblərinin həyat hekayəsinə diqqət etməli, Vətənin hər zaman hazırlıqlı, müsəlləh əsgəri kimi, onları, onların ailəsini diqqət mərkəzində saxlamalıyıq. Onlar bizim tarixi qələbəmizi qazananlar, Vətəni Vətən edənlər və onların canlı şahidləridir. Onların ürəklərinin titrək bir qocaya çevrilməsinə yol verməyək. Bir nər cavan ürəyitək yaşadaq qazilərimizi.

**BİBİXANIM.**

# Xeyirxahlıq ümiddir, sabaha inamdır

Vətən müharibəsi qazisi Elçin Səmədov müalicədən sonra yeni evinə dönüb.



zi Qəbələyə, evinə qayıdıb.

Müalicədən sonra Elçinin nitqində xeyli irəliləyiş var. Əvvəlkinə nisbətən az da olsa gəzə bilir. Günü gündən vəziyyəti daha da yaxşılaşır.

Qazinin yeni evi xeyirxah insanlar tərəfindən tikilib. O, əvvəllər vaqon evdə yaşayırdı. Xatırladaq



ki, Elçin Səmədov Vətən müharibəsində ürək nahiyəsindən qəlpə yarası almışdı.

İTV əməkdaşları qazimizin yeni evində qonaq olub. Bakıda müalicəsini uğurla başa vuran qazi Qəbələyə, evinə qayıdıb.

# Milli bayramlar və tarixi günlər

**8 mart - Beynəlxalq Qadınlar Günü**

1857-ci il martın 8-də Nyu-York toxucuları şəhərin küçələrində yürüş edərək, aşağı əmək haqqı və pis əmək şəraitinə qarşı çıxış etdilər. 1910-cu ildə qadınların Kopenhagendə keçirilmiş beynəlxalq konfransında Klara Setkinin təşəbbüsü ilə Nyu-York hadisələrini yad etmək məqsədilə 8 martın beynəlxalq qadınlar günü kimi qeyd edilməsi qərara alındı.O vaxtdan etibarən dünyanın bir çox ölkələrində 8 mart Beynəlxalq Qadınlar Günü kimi bayram edilir.

**10 mart - Milli Teatr Günü**

1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M. F. Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası tamaşaya qoyuldu. Bu şərəfli işdə Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirov mühüm rol oynamışdılar.Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyuldu.

**12 mart - Daxili Qoşunlar Günü**

Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra ölkəmizdə Daxili Qoşunların yaradılması zərurəti meydana çıxdı.Bir tərəfdən Ermənistan ordusunun Qarabağa və sərhəd bölgələrimizə təcavüzünün getdikcə geniş miqyas alması, digər tərəfdən ölkə daxilində Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş digər qüvvələrin fəallaşması bunu tələb edirdi.

Azərbaycan Respublikasının Prezidenti H. Əliyevin 1995-ci il 9 mart tarixli fərmanı ilə martın 12-si Daxili Qoşunlar Günü elan edilmişdir.

**15 mart - Ümumdünya İstehlakçılar Günü**

Ümumdünya İstehlakçılar İttifaqı dünyada istehlakçıların hüquqlarını qorumaqla məşğuldur. Hər bir ölkədə olduğu kimi Azərbaycanda da "İstehlakçıların hüquqlarının qorunması haqqında Qanun" qəbul olunmuşdur.

Ümumdünya İstehlakçılar Gününün elan edilməsi ABŞ prezidenti Con Kennedinin 1961-ci il martın 15-də Konqresdə etdiyi çıxışla bağlıdır.

**20-21 mart - Novruz bayramı**

Çox qədim zamanlardan başlayaraq dünya xalqlarının bir çoxu yazın gəlməsini, təbiətin oyanmasını, əkin işlərinin başlanmasını bahar bayramı kimi qeyd etmişlər. Bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi qarşılamışlar. Novruz bayramı martın 21-də keçirilir. Bu isə yaz gecəgündüz bərabərliyinə təsadüf edir.

**21 mart - İrqi ayrı-seçkiliyin (Diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü** - 1966-cı il oktyabrın 26-da BMT Baş Məclisinin XXI sessiyası İrqi Diskriminasiyanın Ləğvi Uğrunda Beynəlxalq Mübarizə Gününün təsis edilməsi haqqında qərar qəbul etdi. Baş Məclis bütün dövlətlərə müraciət edərək hər il martın 21-dən başlayaraq rasizmə və diskriminasiyaya qarşı mübaizə aparan xalqlarla həmrəylik həftəsi keçirməyə çağırdı. Diskriminasiyaya ən çox məruz qalan Cənubi Afrika Respublikasında 21 mart insan Hüquqları Günü kimi qeyd olunur.

**27 mart - Beynəlxalq Teatr Günü**

Teatrın vətəni qədim Yunanıstandır. Bu söz də yunan sözü olub "tamaşa yeri" deməkdir.

Teatr sonralar Romada, Şərq ölkələrində - Çində, Hindistanda, Yaponiyada geniş yayıldı.1948-ci ildə teatr ictimaiyyəti rəsmi olaraq YUNESKO-nun himayəsi altında Beynəlxalq Teatr İnstitutunda birləşdi.

**28 mart - Təhlükəsizlik Orqanları İşçiləri Günü**

Azərbaycan Respublikasının Prezidenti H. Əliyevin 1997-ci il mart tarixli fərmanı ilə 28 mart - Milli Təhlükəsizlik Orqanları İşçiləri Günü elan olunmuşdur.

**31 mart - Azərbaycanlıların soyqırımı günüdür.**

1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.